*Peşə təhsili və insan kapitalı. Cild 5, №2, 2022, s.69-71*

# FERMER VƏ FƏRDİ TƏSƏRRÜFATLARDA QUŞLARIN KOLİBAKTERİOZ VƏ PASTERELLYOZA YOLUXMA SƏBƏBLƏRİ



**Mirzəmməd Həsənov,**
*ARKTN-nin Baytarlıq Elmi-Tədqiqat İnstitutunun Quş xəstəlikləri şöbəsinin müdiri, aqrar elmlər üzrə fəlsəfə doktoru*
*e-mail: mirzehesenov1997@gmail.com*

**UOT**: 616; 63

**Xülasə.** *Məqalədə fermer və fərdi təsərrüfatlarda quşların kolibakterioz və pasterellyoza yoluxma səbəblərindən, eləcə də son illərdə quşçuluq təsərrüfatlarında aparılan elmi-tədqiqat işlərindən və şərti-patogen mikrobların təsərrüfatların fəaliyyətinə təsirindən bəhs edilmişdir. Son illərdə respublikanın Masallı və Xaçmaz rayonlarının quşçuluq təsərrüfatlarında tədqiqatlar aparılmış, eyni zamanda quşların bəslənilməsi və yetişdirilməsi prosesində nöqsanlar nəticəsində xəstəliklərin yaranmasında şərti-patogen mikrobların və mikroiqlimin rolu da müəyyən edilmişdir.*

***Açar sözlər:*** *toyuq, təsərrüfat, yoluxma, müayinə, infeksiya.*
***Key words:*** *chicken, farm, infection, examination, infection.*
***Ключевые слова:*** *курица, хозяйство, заражение. обследование, инфекция.*

Ölkəmizdə quşçuluğun davamlı inkişafı məqsədi ilə biznes mühitinin daim yaxşılaşdırılması və bu sahədə qanunvericilik bazasının təkmilləşdirilməsi, regionların inkişafı, yerli və xarici investisiyaların, müasir texnologiyaların, idarəetmə təcrübəsinin cəlb edilməsi və bu yolla yüksək keyfiyyətli, rəqabətqabiliyyətli məhsulların istehsal edilməsi dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən iqtisadi inkişaf strategiyasının prioritetlərindəndir. Məhz bunun nəticəsidir ki, görülmüş işlər sayəsində quşçuluğa dövlət maliyyə dəstəyi mexanizmi əhəmiyyətli dərəcədə təkmilləşdirilib. Dünyanın bir çox ölkələrində də quşçuluq sənayesi kənd təsərrüfatı məhsullarının istehsalı sahəsində aparıcı yer tutur. Bu sahə əhalini yüksək keyfiyyətli pəhriz məhsulları, sənayeni isə emal üçün xammal ilə təmin edir. Quşçuluq heyvandarlığın ən tez yetişən və gəlirli sahələrindən biridir. Belə ki, quş əti pəhriz məhsulu olduğu üçün quşçuluğa daim ehtiyac vardır.

Baytarlıq-müalicə, sanitariya-gigiyena tədbirlərinə və quşçuluq mədəniyyətinin yüksəldilməsinə baxmayaraq, quşların infeksion xəstəliklərə yoluxması baş verir. Məlum həqiqətdir ki, quşçuluqda yemləmə düzgün olmadıqda və istifadə edilən yemlər keyfiyyətsiz olduqda bir çox xəstəlik törədicilərinin, o cümlədən kolibakteriozun, pasterellyozun və s. yayılmasına səbəb olur.

Mövzu ilə əlaqədar respublikamızın müxtəlif regionlarının təsərrüfatlarında aparılan monitorinqlərin nəticələri göstərir ki, quşçuluq müəssisələrində kolibakterioz və pasterellyoz xəstəlikləri geniş yayılmışdır. Quşçuluğun müasir inkişaf mərhələsində quşların sayca artırılmasına,

məhsuldarlığının yüksəldilməsinə ciddi mane olan səbəblərdən hesab olunan infeksion xəstəliklər xüsusi yer tutur. Təsərrüfatlarda infeksion xəstəliklərə tez-tez təsadüf edilir. Müxtəlif növ xəstəlik törədiciləri quşların orqan və toxumalarına daxil olub patologiyalar yaradır [1, 2].

Fermer və fərdi təsərrüfatlarda quşların yoluxucu xəstəliklərinin öyrənilməsində müəyyən nailiyyətlər əldə olunmuşdur. Lakin bir sıra xəstəliklərə qarşı səmərəli mübarizə tədbirləri və üsullarının təşkili digər xəstəliklərdə də vacib əhəmiyyət kəsb etməyə başlayır. Kolibakterioz və pasterellyoz da belə xəstəliklərdəndir ki, bu xəstəliklər quşçuluq təsərrüfatlarında tez-tez qeydə alınır və tələfata səbəb olur [3, 4].

Son illərdə quşçuluğun fermer əsasına keçirilməsi nəticəsində epizootik vəziyyət bir çox yoluxucu xəstəliklərə, xüsusilə patogen və şərti-patogen mikrobların törətdikləri xəstəliklərə görə əhəmiyyətli dərəcədə dəyişmişdir [5, 6]. Belə ki, fermer quşçuluq təsərrüfatlarında bir tərəfdən məhdud sahədə xeyli miqdarda müxtəlif yaşda quşların toplanılması və mütəmadi olaraq onların təzələnməsi, yemləmə və saxlanma şəraitindəki qüsurlar, quşların stress amillərə və xəstəliklərə daha həssas olması, digər tərəfdən cücələrə ilk gündən dərman preparatlarının verilməsi ilə əlaqədar olaraq mədə-bağırsağın faydalı mikroflorasının inkişafının dayandırılması nəticəsində quş orqanizminin ümumi vəziyyəti və təbii müdafiə funksiyaları zəifləyir. Quşçuluq təsərrüfatlarında infeksion xəstəliklərin mövcudluğunu, onların başvermə və yayılma səbəblərini, yaş qrupları üzrə kolibakterioz və pasterellyozun yayılmasını tədqiqatlarımızla müəyyən etmək qarşıya məqsəd olaraq qoyulmuşdur.

**Material və metodlar.** Kolibakterioz və pasterellyoza görə epizootik vəziyyət Masallı və Xaçmaz rayonlarının fermer quşçuluq təsərrüfatlarında, bakterioloji müayinələr isə Azərbaycan Baytarlıq Elmi-Tədqiqat İnstitutunun Quş xəstəlikləri şöbəsində aparılmışdır.

Tədqiqatlar zamanı epizootik vəziyyəti aydınlaşdırmaq üçün Masallı və Xaçmaz rayonlarında quşçuluq təsərrüfatlarının məlumatları analiz edilmişdir. Hər bir rayonun quşçuluq təsərrüfatı üzrə (ümumilikdə 135 quşdan) 30, 45, 60 günlük quşlardan hər yaş qrupundan 45 patoloji material götürülərək müayinə edilmişdir. Bu zaman təsərrüfatlarda quşların miqdarı, saxlanma şəraiti, yemin tərkibi, quşların yaşı, təsərrüfat və nəqliyyat əlaqələri, baytar-sanitar obyektləri, müalicə və profilaktika tədbirlərinin səmərəsi təhlil edilmişdir. Belə ki, quşların yaşdan asılı olaraq yoluxma dərəcəsi Masallı və Xaçmaz rayonlarının quşçuluq təsərrüfatlarından götürülmüş patoloji materiallar əsasında öyrənilmişdir. Kulturalar cücələrin sümük iliyindən götürülərək qida mühitlərinə əkilməklə alınmış, təfriq etmək üçün isə Endo və Vismut-sulfid qida mühitlərindən istifadə edilmişdir.

**Alınan nəticələr və onların müzakirəsi.** Aparılan tədqiqatlar nəticəsində ev toyuqlarının infeksion xəstəliklərə – kolibakterioz və salmonellyoza yoluxması müəyyən olunmuşdur. Belə ki, müayinələr zamanı Masallı və Xaçmaz rayonlarının fermer təsərrüfatlarında ev toyuqlarının yaş qrupları üzrə kolibakterioz və pasterellyoza yoluxması aşkar edilmişdir. ***Cədvəl 1***-dən göründüyü kimi, yaşdan asılı olaraq təsərrüfatlardan gətirilmiş 135 ədəd patoloji material bakterioloji müayinədən keçirilmişdir. Aparılan müayinə zamanı müəyyən edilmişdir ki, Masallı rayonu üzrə ev toyuqlarının kolibakterioz və pasterellyoza yoluxması hər bir yaş qrupları üzrə müxtəlifdir.

***Cədvəl 1.***

***Masallı rayonu üzrə ev toyuqlarının kolibakterioz və pasterellyoza yoluxması***

| Quşların yaşı | Müayinə edilmişdir | Kolibakterioz | | Pasterellyoz | |
|---|---|---|---|---|---|
| | | Yoluxanların sayı | Yoluxma %-i | Yoluxanların sayı | Yoluxma %-i |
| **30 günlük** | 45 | 11 | 24,4 | 14 | 31,1 |
| **45 günlük** | 45 | 15 | 33,3 | 17 | 37,7 |
| **60 günlük** | 45 | 9 | 20,0 | 12 | 26,6 |
| **Təsərrüfat üzrə cəmi** | 135 | 35 | 26,0 | 43 | 32,0 |

Analoji tədqiqatlar Xaçmaz rayonu fərdi quşçuluq təsərrüfatlarında da aparılmışdır. Təsərrüfatlardan gətirilmiş 135 ədəd patoloji material bakterioloji müayinədən keçirilmişdir. Xaçmaz rayonu üzrə də ev toyuqlarının kolibakterioz və pasterellyoza yoluxmasının hər bir yaş qrupları üzrə müxtəlif olması aparılan müayinə zamanı müəyyən edilmişdir ***(Cədvəl 2).***

*Cədvəl 2.*

***Xaçmaz rayonu üzrə ev toyuqlarının kolibakterioz və pasterellyoza yoluxması***

| Ev toyuqlarının yaşı | Müayinə edilmişdir | Kolibakterioz | | Pasterellyoz | |
|---|---|---|---|---|---|
| | | Yoluxanların sayı | Yoluxma %-i | Yoluxanların sayı | Yoluxma %-i |
| **30 günlük** | 45 | 13 | 28,8 | 15 | 33,3 |
| **45 günlük** | 45 | 17 | 37,7 | 19 | 42,2 |
| **60 günlük** | 45 | 12 | 26,6 | 14 | 31,1 |
| **Təsərrüfat üzrə cəmi** | 135 | 42 | 31,1 | 48 | 35,5 |

**Nəticə.** Tədqiqat obyekti olan təsərrüfatlarda infeksion xəstəliklər iqtisadi cəhətdən böyük ziyan vurur. Bu xəstəliklərin təsərrüfatlarda kökünü kəsməyin əsas üsulu damazlıq sexlərinin tam steril vəziyyətdə olması, inkubatorlarda baytar-sanitar tədbirlərinin tam və ciddi şəkildə yerinə yetirilməsi, eləcə də quşçuluq təsərrüfatlarının mütləq qapalı şəraitdə fəaliyyət göstərməsidir. Bununla yanaşı, quşların xəstəliyə qarşı rezistentliyini yüksəltmək üçün vitamin və mikroelementlərlə zəngin balanslaşdırılmış yemdən istifadə edilməlidir.

## ƏDƏBİYYAT

1. Əliyev E.A., Əzimov İ.M., Vəliyev U.M., Səfi N.V. Epizootologiya və infeksion xəstəliklər. Bakı, 2013, səh. 784-790.

2. Qocayev A., Abbasov Ə., Hüseynov Ə., Məmmədov C. Ross broyler quşlarının saxlanma şəraiti və bəslənməsi. Bakı, Heroqlif, 2018, səh. 12-24.

3. Mikayılov M.S., Əsgərov A.R., Həsənalıyev N.H., Həsənova M.C. Quşların kolibakterioz və salmonelyozunun epizootiki situasiyasının öyrənilməsi. Baytarlıq Elmi-Tədqiqat İnstitutunun “Elmi əsərlər” məcmuəsi, cild 34, Bakı, 2016, səh. 56-59.

4. Аблов А.М., Батомункуев А.С., Ангонова Е.В., Мельцов И.В. Применение статических методов при анализе эпизоотической ситуации по инфекционным болезням животных и птиц: методические рекомендации. Иркутск, ИрГСХА, 2014, 25 с.

5. Горюнов Н.А. Домашняя птица в приусадебном хозяйстве. Москва, Россельхозиздат, 1978, стр. 16-21.

6. Закомырдин А.А. Ветеринарно-санитарные мероприятия в промышленном птицеводчестве. Москва, Колос, 1981, стр. 23-33.

**M.Hasanov**

## Causes of colibacillosis and pasteurellosis in birds in farms and individual farms

**Abstract**

The article discusses the causes of colibacillosis and pasteurellosis in birds in farms and personal subsidiary farms, as well as scientific research conducted in poultry farms in recent years and the impact of opportunistic microorganisms on farms. In recent years, research has been carried out at poultry farms in the Masalli and Khachmaz regions of the republic, at the same time, the role of conditionally pathogenic microbes and the microclimate in the development of diseases caused by shortcomings in the process of feeding and rearing birds was established.

**М.Гасанов**

## Причины заражения колибактериоза и пастереллеза птиц в хозяйствах и личных подсобных хозяйствах

**Аннотация**

В статье рассматриваются причины возникновения колибактериоза и пастереллеза у птиц в фермерских и личных подсобных хозяйствах, а также о научных исследованиях, проводимых на птицефабриках в последние годы и влияние условно-патогенных микроорганизмов на хозяйства. В последние годы исследования проводились на птицефабриках Масаллинского и Хачмазского районов республики, при этом была установлена роль условно-патогенных микробов и микроклимата на развитие заболеваний, обусловленных недостатками в процессе кормления и выращивания птиц.